SİZİN ÜÇÜN QƏZET
№20 (3359) 3 İyun / 2025-ci il
www.hurriyyet.az; / hurriyyet@mail.ru



*Vilyam Şekspir:*
**Həyat teatrdı, insanlar aktyor**
**Onların dostluğu bir təsadüfdən başlamışdı...**

# Oyun və ya üçüncü artıqdır

## *(Psixoloji hekayə)*

**Həmişə olduğu kimi həyətdə uşaqlar ucadan qışqıra-qışqıra futbol oynayırdılar. Ruslan da kənarda dayanıb onların oynuna tamaşa edə-edə iki üç il bundan qabağı xatırlayırdı. O da öz yaşıdları ilə hər gün dərsdən gələn kimi top qovalayardı. Amma indi universitetdə psixologiya ixtisasi üzrə birinci kurs tələbəsi idi. Boş vaxtlarında müntəzəm idman məşqlərinə gedir, üzgüçülüklə məşğul olurdu. Günü-gündən kişiləşirdi, sinəsi enlənmiş, əzələləri geyindiyi nazik köynəyinə iz salırdı. Təzəcə buraxdığı qısa saqqal və nazik bığ onu çox yaraşıqlı göstərirdi. Digər oğlanlar kimi, o da qızların diqqətini çəkməsi ilə gizlincə fəxr edirdi.**

***(Əvvəli ötən saylarımızda)***



Ruslan Fəridə ilə tanış olduğu gündən Fəridlə görüş vaxtınıdəyişdirmişdi. Əvvəlcə o, özünə qız tapdığını Fəriddən gizlətməyə çalışırd. Düşünürdü ki, Fərid qısqanclıq edər, ondan küsər. Amma sonra gectez bunu ona bildirməli olduğunu düşünüb, ilk məhəbbəti haqqında dostuna danışdı. Fərid əvvəl özünü küsən kimi göstərib dedi:

- Mən artıq sənin üçün artığam.

Sonra isə dostunun qarşısından şərt qoydu:

- Onda ikimizi də eyni dərəcədə sevəcəyinə söz ver.

Ruslan Fəridin bu cür danışıqlarına adət etmişdi.

- Yaxşı yaxşı, ikiniz arasında heç bir fərq qoymayacayam ki, hər hansı biriniz mənə üçüncü kimi artıq olmasın.

Fərid:

- Hə, onda problem yoxdur. Bəs nə vaxt bizi tanış edirsən? Danış da, onu necə sevirsən, məni çox istəyirsən, ya onu?

Fərid cavab gözləmədən sualı-suala qoşurdu.

Ruslan Fəridəyə olan məhəbbətini ən gözəl sözlərlə Fəridə anlatmağa başladı. Onunla necə tanış olduğunu, necə vurulduğunu, Fəridənin necə gözəl olduğunu dostuna anladarkən Fəridin gözlərində sevinci görüb, - "yəqin mənim xöşbəxtliyimə sevinir", - dəyə düşündü.

Fəridin qısqanclığı keçmişdi. Əksinə, indi o, Ruslanı Fəridə ilə daha yaxın olmağa təhrik edirdi. Oxuduğu əsərlərdəki sevgililər arasında deyilmiş ən gözəl sözləri Fəridəyə deməsini ona öyrədirdi.

Ruslan Fəridəyə də Fərid haqqında demişdi. Bir dəfə hətta ifrata varıb, Fəridə olan hissləri ilə bağlı o qədər ehtirasla danışmışdı ki, bu dəfə də az qala Fəridəni küsdürmüşdü. O, sevgilisi ilə dostunu tanış etməyə tələsirdi. Əvvəl, Fəridə buna etiraz etdi, amma sonra etiraz etmədi:

- Sən bilərsən.

Ruslan Fəridə sevdiyi qızla onu tanış etmək istədiyini deyəndə Fərid dərhal, - "lap yaxşı, mən hazır", - dedi.

Ruslan sabah Fəridə ilə onu tanış etmək üçün danışdıqları vaxtda Bulvarda olmağını xahiş edib, evlərinə getdi. Ertəsi gün deyilən saatda Fəridə ilə Fəridi gözləməyə başladılar. Deyilən vaxtdan yarım saat keçmişdi, amma Fərid gəlib çıxmırdı. Ruslan narahat olmağa başladı:

- Görəsən, harda qaldı bu?! Birdən bir hadisə olar?..

Fəridədən üzr istəyib bir kənara çəkildi və Fəridə zəng etdi. Əvvəl Fəridin nömrəsi cavab vermədi. Bir qədər gözləyib təkrar zəng etmək istəyəndə telefonuna Fəriddən mesaj gəldi: "Məşqdəyəm, gələ bilməyəcəyəm".

Ruslan çox pərt oldu. Fəridənin yanına qayıdıb, - "Fərid məşqdədir, bu gün alınmayacaq, qalsın sabaha", - dedi.

Fəridə bir söz demədi. Sabahsı gün Ruslan Fəridi də götürüb Bulvara gəldi. Vədələşdikləri vaxtdan xeyli keçsə də, indi dəFəridə görünmürdü. Narahat oldu. Fəridəyə zəng etdi. "Abonent əhatə dairəsindən çıxıb" sözlərini eşidib, pərt oldu. Bir saat da gözlədilər. Ruslan dəfələrlə Fəridəyə zəng etdi, telefonu bağlı idi. İkilikdə bir az gəzib evə qayıtdılar. Ruslan bunu uğursuzluq kimi dəyərləndirdi, amma, "Eybi yoxdur, başqa bir gün mütləq tanış edərəm. Mənim dostum və sevgilim bir-birini tanısa yaxşıdır", - dəyə düşündü.

Fəridə bir söz demədi. Sabahsı gün Ruslan Fəridi də götürüb Bulvara gəldi. Vədələşdikləri vaxtdan xeyli keçsə də, indi dəFəridə görünmürdü. Narahat oldu. Fəridəyə zəng etdi. "Abonent əhatə dairəsindən çıxıb" sözlərini eşidib, pərt oldu. Bir saat da gözlədilər. Ruslan dəfələrlə Fəridəyə zəng etdi, telefonu bağlı idi. İkilikdə bir az gəzib evə qayıtdılar. Ruslan bunu uğursuzluq kimi dəyərləndirdi, amma, "Eybi yoxdur, başqa bir gün mütləq tanış edərəm...

Amma sonrakı tanışlıq cəhdləri də alınmadı. Hər dəfə ya Fəridin işi çıxırdı, ya da Fəridə gələ bilmirdi. Bəzən heç biri deyilən yerdə görüşə gəlmirdi. Ruslan dilxor olmuşdu. Fərid də Fəridə də ayrı-ayrılıqda Ruslana ürək-dirək verirdilər:

- Niyə tələsirsən, görüşərik də.

Amma Ruslan onların birbirini tanımasını çox istəyirdi. Bir neçə belə uğursuz cəhddən sonra Ruslan da artıq Fəridlə Fəridəni tanış etmək istəyindən vaz keçdi. Düşündü ki, nə vaxt alınar, o vaxt tanış olarlar.

Ruslan Fəridə ilə daha çox yaxınlaşmışdı. Bir gün ona ürəyini açdı:

- Səninlə evlənmək istəyirəm. İcazə ver, ailənlə valideynlərim danışsın.

Fəridə bu təklifi çoxdan gözləyirdi. Cavabı hazır idi:

- Valideynlərim mən ali təhsil almayınca evlənməyimizə icazə vermezlər. Buna görə, tələsmək lazım deyil.

Əslində, Ruslan bir dəfə də olsun Fəridənin əlindən tuta, onun ətrini yaxından qoxlaya bilməmişdi. Çünkü hər dəfə sevgilisinə daha çox yaxınlaşanda Fəridə sərt şəkildə şərtlərini ona bir daha xatırladırdı. Ruslan bunu Fəridənin əsl ev xanımı kimi tərbiyə almasında görürdü. İndi düşünürdü ki, nişanlansalar, artıq onları ayıran şərtlər əhəmiyyətini itirər.

Ruslan dəfələrlə Fəridəyə eyni təklifləri edir, onsuz yaşaya bilməyəcəyini, tezliklə bir damın altında yaşamaq istədiyini deyirdi. Fəridədən də eyni cavab alırdı:

- Olmaz, tezdir.

Ruslan iztirab çəkməyə başlamışdı. Fərid dostunun əzab çəkdiyini görürdü. Ruslan Fəridə ilə aralarında olan söhbəti ona dedi. Fərid bir az düşündükdən sonra:

- Bəlkə o, səni sevmir...

- Yox, nə danışırsan, onun məni necə sevdiyini hər an hiss edirəm.

- Onda, bəlkə sənin onu sevmədiyini düşünür.

- Yox, mən onu sənin qədər sevirəm.

Dərhal da Fəridin inciyəcəyindən qorxub, sözlərinə düzəliş edir:

- Sənin qədər, amma qız kimi sevirəm.

Fərid Ruslana radikal bir ideya verdi:

- Əgər, ancaq valideynləri problemdirsə, onda onu razı sal qaçır. Sonra valideynləri məcbur olub verərlər...

Ruslan bu fikrdən xoşu gəldi. Ertəsi gün Fəridə ilə görüşəndə:

- Əgər, məni həqiqətənsevirsənsə, onda valideynlərini bir kənara qoy, özümüz ailə quraq. Sonra onlar fakt qarşısında qalıb, bizi dəstəkləyəcəklər.

Fəridə əvvəl özünü tərəddüd edən kimi göstərdi:

- Birdən sonralar məndən üz döndərərsən, üçüncü birini sevərsən, onda mən nə edərəm...

Ruslan Fəridənin ayaqlarına yıxılıb, ona olan sevgisini izah etməkdən özünü gücle saxladı.

- Yox, mən ölənə qədər səninlə olacam. Bu həyatda sənin qədər sevdiyim ikinci biri varsa o da dostum Fəriddir.

Ruslan həqiqətən onlara olan sevgisi arasında fərq görmürdü. Özü də buna təəccüblənirdi. Başqalarından soruşmağa da utanırdı.

Ruslanın davamlı təkidlərindən sonra, nəhayət ki, Fəridə razılığını verdi.

Ruslan ailələrinin rayona istirahətə getməyini gözləməyə başladı. O, öz valideynləri üçün də evlənməsinin sürpriz olmasını istəyirdi. Rayondan qayıdanda valideynləri evlərinə gəlin görsəydilər, yəqin ki, sevinclərindən uçardılar.

Bu barədə Fəridə də danışdı. Fərid sual etdi:

- Sən doğrudan da onu elə sevirsən ki, nə olursa-olsun, onunla evlənməyə hazırsan?

- Əlbəttə, ölümdən başqa nə olursa-olsun, mən onu sevəcəyəm.

Fərid:

- Onda sizi təbrik edirəm. Xoşbəxt olun.

***(Ardı var)***

**AZAD**